*18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*

# Hər qarışında tarix yatan Azərbaycan

Azərbaycan sərt qayalar, uca zirvələrə yüksələn qalalar, göz oxşayan qədim abidələr məkanıdır.

Odlar yurdunun ən qədim, əvəzsiz və qiymətli tarixi yadigarı olan mağaralar, xüsusilə Azıx mağarası, Aveydağ mağaraları, Qobustan qayaüstü rəsmlər, 2500 illik tarixi özündə yaşadan, 900 illik paytaxt şəhəri müdafiə edən qədim Qəbələ qalası, Atəşgah, Qız qalası, Şirvanşahlar sarayı, Bərdə türbəsi, Həzrə türbələri, Şəki xan sarayı və s. qiymətli sənət nümunələri milli sərvətimizdir.

Bu beş tipi səciyyələndirən abidələr - 1. İstehkam səciyyəli, 2. Dini xarakterli, 3. Ritual abidələr, 4. Milli məişət və adət-ənənəyə bağlı abidələr, 5. Memorial abidələr. Onlar minilliklər boyunca Azərbaycanın necə təşəkkül tapdığını sənətə və sənətkarlığa, incəsənətə böyük dəyərin təcəssümüdür. Ən qədim insan məskəni 300 - 400 minillik yaşı olan Azıx mağarası, 10 min illik tarixi arxada qoyan Qobustan və Naxçıvan, Kəlbəcər qaya təsvirləri, Şəki Xan sarayı, Şəki Karvansarayları, Şirvanşahlar sarayı, Gəncə Qala qapıları, digər tarixi abidələr, incəsənət və memarlıq abidələri Azərbaycanın qədimliyinin, bu qədimliklə birgə addımlayan və vəhdət yaradan unikal mədəniyyətimizin və incəsənətimizin göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkə ərazisində mühafizə edilən bütün tarixi və memarlıq abidələrinə diqqəti daha da artırmışdır. Qədim müdafiə qalaları, karvansaraylar, məscidlər, məbədlər və türbələrlə zəngin olan Azərbaycan üçün gözəl və əlverişli bir il olacağına əminik. Tarixi və memarlıq abidələri ilə zəngin Azərbaycan abidələrinin say çoxluğuna görə "Şəhərsalma və Memarlıq İli"nə böyük töhfə verəcək. "Şəhərsalma və Memarlıq İli"nin elan olunduğu Azərbaycan dünyanın diqqət mərkəzində olacaq. Belə ki, şəhərlərin dayanıqlı inkişafı və müasir memarlıq yanaşmalarının qlobal müzakirə edildiyi bir dövrdə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası (WUF13) xüsusi əhəmiyyət daşıyacaq. Bütün bu olanlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da artıracaq.

2020-ci ildən sonra son beş ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində böyük quruculuq işləri həyata keçirilir. Qarabağda müharibənin fəsadları, o cümlədən 30 ilə yaxın erməni vandalizminin acı nəticələri sürətli şəkildə aradan qaldırıldı. Bu gün Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir. Bu istiqamətdə hər bir sahədə uğurlar əldə edilmişdir. Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları görülmüş işlər dövlətimizin gücünü göstərir.



Heydər Əliyev vətənin köksündə yer tapan hər bir abidəyə diqqət və qayğı ilə, həssaslıqla yanaşmışdır. Respublika Nazirlər Soveti 27 mart 1978-ci ildə Qəbələ tarix və mədəniyyət qoruğunun yaradılması qərarını verdi. Bununla da abidələrlə zəngin olan Azərbaycanın qədim tarixi və memarlıq nümunələrinin bərpası və mühafizəsi istiqamətində mühüm addımlar atıldı.

Azərbaycanın bir parçası olan Qəbələ rayonu ərazisində 93-dən çox abidə aşkar edilmiş və mühafizə olunmaqdadır. Qədim Qafqaz Albaniyasının Qala divarları, IV-VI əsrlərə aid Kilsədağ məbədi, Hacılalılı kəndində IV əsr məbədi, X - XII əsrlər Surxay xan qalası, Yengicə kəndində IV - XIV əslər Qızlar qalası, Nic kəndində antik dövr Nekropol, b.e.ə. II - V əsrlər Yenikənd ərazisində küp qəbirlər, XIV - XVI əsrlərə aid Həzrə türbələri, XVIII əsrə aid səkkizgüşəli Məscid, XIX - XX əsrlərin başlanğıcında inşa edilmiş Cümə məscidi, Bum qalası, Vəndam qalası və s. Qəbələ rayonu ərazisində ən qədim qiymətli tarixi və memarlıq nümunələridir.

E.ə. IV əsrdən eramızın V əsrinədək 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş, 2500 illik Qəbələ şəhərinin qala və giriş darvazalarının, antik dövrə aid müxtəlif arxeoloji məbədlər, o cümlədən bir sıra bina qalıqları bir daha sübut edir ki, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin keçmişi var. Azərbaycanın qədim Böyük İpək Yolu üzərində yerləşməsi mədəniyyət və incəsənətinə birbaşa təsir etmişdir. Ticarət, sənətkarlıq, mədəniyyət nümunələrinin inkişafı məhz İpək Yolu vasitəsilə təşəkkül tapıb. Bununla da Şərq ölkələri ilə sıx mədəni, iqtisadi əlaqələr yaranmış və nəticədə böyük şəhərlər daha da genişlənmiş, inkişaf etmişdir. Qiymətli memarlıq nümunələri, mədəniyyət və incəsənət sahəsində irəliləyişlər olmuşdur. Bütün bunların əyani nümunəsi olaraq Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondunda mühafizə olunan, tarixin müxtəlif mərhələlərini özündə yaşadan mədəniyyət, incəsənət və sosial-məişət xarakterli qədim əşyaları diqqətə gətirmək yetərlidir.



1971-ci ildə Böyük Əmili kəndində, IV - VI əsrlərə aid Kilsədağ məbədi aşkar edilmiş, qədim abidə nümunəsi olaraq Azərbaycanda memarlığın yüksək səviyyədə inkişafından xəbər verir. Kilsədağ məbədi onu Qafqaz Albaniyasının və ümumilikdə Cənubi Qafqazın digər dairəvi məbədlərindən fərqləndirən bir sıra xüsusiyyətlərə malikdir. Bu fərqlilik bir daha sübut edir ki, Azərbaycanda dövrün yüksək səviyyədə inkişaf etmiş memarlıq üslubu olmuşdur.

Böyük Qafqazın cənub ətəklərində, Bum kəndi yaxınlığında, Bum və Dəyirman çayları arasında yerləşən, dördbucaqlı şəkildə Bum qalası qədim istehkam tipli abidələr qrupuna daxildir. Ötən əsrin 80-ci illərində F. V. Qədirov tərəfindən Bum qalasında kiçikmiqyaslı kəşfiyyat işləri aparılmışdır.

Vəndam qalası da tarixi qalalar içərisində özünəməxsus yer tutur. Bu Qəbələ rayonunun Vəndam qəsəbəsi ərazisində yerləşir. Bu gün Vəndam sakinləri bu abidəni "Qalaüstü" adlandırırlar. 1964-cü ildə arxeoloq F. V. Qədirov Vəndam qalasında arxeoloji tədqiqat işləri aparmış, Bum qalasından fərqli olaraq qalanın oval formalı olduğunu təsdiqləmişdir. Bu müxtəliflik bir daha sübut edir ki, Azərbaycanda memarlığın tarixi qədim olduğu qədər, zəngin bir yol keçib. Bayramkoxa qalası tarixi istehkam xarakterli qədim abidədir. Göyçay dərəsindən qərbdə, Kələş düzündən cənubda, Kilsədağ məbədi yaxınlığında olan bu abidə ərazisində olduğu kəndin adı ilə Bayramkoxa qalası adlanır. 1972-ci ildə Firidun Qədirov tərəfindən orada ilkin arxeoloji tədqiqat işləri aparılmış və bu gün abidənin yerləşdiyi ərazi həm də, Təpələr, yaxud da Yeddi təpə adı ilə məlumdur.

Bu gün Qəbələ şəhərində Umnisə Musabəyova küçəsində XVIII əsrə aid yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi, memarlıq nümunəsi Səkkizgüşəli məscid fəaliyyət göstərir. Adından göründüyü kimi səkkiz səthli, təkrarsız, klassik üsluba malik sənət əsəri olan bu məscid ən dolğun memarlıq nümunəsidir. Cənnət sferası rəmzi olan məscid bu gün dini məkan kimi istifadədədir. Forma və arxitekturası ilə seçilən bu məscid, mədəni irsimiz olaraq mühafizə edilir.

Rayonun mərkəzində yerləşən Cümə məscidi 1899-cu ildə inşa edilmiş və 1906-cı ildə istifadəyə verilmişdir. Memarlıq sənətinin inciləri olan, maddi-mənəvi dəyərlərimiz kimi mühafizə olunan hər iki məscid bu gün əhalinin tam istifadəsindədir.

Bu gün Azərbaycanın qədim tarixini, mədəniyyətini, incəsənətini mühafizə edən muzeylərdə mühafizə olunan bir sıra nümunələr bəşər sivilizasiyanın mərhələli inkişafının göstəricisidir. Qəbirüstü qoç fiqurlar, daşyonma sənəti nümunəsi olan abidələr, müxtəlif ornamentli qəbir daşları və s. Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondunda müxtəlif maddi-mədəniyyət nümunələri var ki, tarixən istedadlı, yüksək memarlıq bacarığına malik olan sənətkarların yaşadığına sübutdur. Bundan əlavə olaraq muzeyin açıq səma altında daimi sərgisində müxtəlif formalı, X - XV əsrlərə aid qapı tağları, böyük sütunaltlıqları və sütunlar qədim şəhərin yüksək səviyyədə memarlığın inkişafının müjdəçisidir.

XIV - XVI əsrlərə aid Həzrə türbələri meşə ərazisində dövrün filosoflarının, dünyagörüşlü simalarının məzar yeri olmaqla bərabər, bədii daşyonma əsərlərinin ən nadir nümunələrinin mühafizə olunduğu tarixi məkandır. Burada 4 türbə: Şeyx Mənsur, Şeyx Bədrəddin, Şeyx Məhəmməd və adsız türbə XIV - XVI əsrlərdə buranın mühüm iqtisadi-siyasi və ictimai əhəmiyyətə malik yaşayış məntəqəsi olduğunu sübut edir. Bu abidələr türbələrdən və sənduqələrdən ibarətdir. Türbələrin portallarında və sənduqələrin üzərində nəfis işlənmiş kitabələr həkk olunub. Buradakı Sənduqələr diqqəti cəlb edir. Həkkak və xəttatlar ərəb əlifbasının xüsusiyyətlərindən istifadə edərək başdaşıların üzərinə vurduqları naxışlarla yanaşı, abidələrin bəzəyində haşiyə, qaytan və cürbəcür xalçalar şəklində kitab motivləri də işlədiblər. XIV - XVI əsrlərə aid 28 ədəd nəbati-həndəsi naxışlar işlənmiş, gözəl tərtibatlı sənduqələr və 4 türbə burada, təbiətin qoynunda açıq səma altında muzeyi xatırladır.

Dövlət başçısı İlham Əliyevin "Şəhərsalma və Memarlıq İli" ilə bağlı Sərəncamı ölkə ərazisində olan bütün tarixi və memarlıq abidələrinə bir daha nəzər nöqtəsini yetirəcək, diqqəti artıracaq, tarixi irsə söykənən, qədimliklə müasirliyin vəhdətini aşılayan və gələcək nəsilləri bu mövzuda daha fəal olmağa hədəflədi.

**Bəxtiyar VƏLIYEV,**
**rayon tarix-diyarşünaslıq muzeyinin direktoru.**

# Tarixi dərslər unudulmayan ən sərt imtahan olmalıdır

**Görünməyən həqiqət**

İnsan bəşəriyyətin əşrəfi, ən ali məxluqudur. Bu məxluq həyat boyu yaşam prosesində qarşılaşdığı çətinliklərdən, bilərək və bilməyərəkdən etdiyi səhvlərdən, yəni düşüncələrində tüğyan edən, həllinə laqeydliklə yanaşdığı hadisə və dəyişikliklərdən daima dərs almalıdır. Qarşılaşdığı hər bir hadisə onun həyatına ibrətamiz təsir göstərməlidir. Məlum olduğu kimi, hər bir tarixi yazan - hadisələri tarixləşdirən elə insanın özüdür. İnsan düşüncəsi və iradəsi ilə tarixdə xarakterik xüsusiyyətlərindən



asılı olmayaraq hadisələr, dünyanı idarə edəcək dərəcədə dəyişikliklər yaradılır və insanlar bu dəyişikliklərə bəzən istəklə, bəzən isə məcburən tabe olurlar. Bu isə bütün dünyada hegemonluq iddiası ilə baş verən işğallara, qətl və qiyamlara, müharibələrə, müstəmləkəçiliyə səbəb olur. Bəzən ilk baxışdan xoş görünən həyat tərzinin "astar" üzündə acı həqiqətlər yaşanır. Acı həqiqət isə odur ki, faciəyə çevrilən bu acı həqiqətlər çox zaman görünmür, çünki bu görünüş insan zəkasını, düşüncələrini ona xoş bir tərz kimi formalaşdırır, inanclaşdırır. Buna 70 il ərzində yaşadığımız Sovet rejimi əyani misaldır. Azərbaycanda sovet rejiminin əsası 1920-ci ilin aprel ayının 28-də təsdiqlənərək "tarixə" yazıldı...

**Fəlakətdən də güc almalı**

Rusiyanın Azərbaycanı işğal etmək planı hələ 1918-ci ildə Şaumyanın başçılıq etdiyi daşnak bolşevik rejimi tərəfindən hazırlanmışdı. O zaman Bakıda, o cümlədən Azərbaycanın hər yerində törədilən türk-müsəlman qırğınlarının da arxasında məhz bolşevik işğalına hazırlıq dayanırdı.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra qısa müddətdə bolşeviklər yerli satqınların (xüsusilə ölkəmizdə yaşayan bir çox ermənilərin və ermənilərlə yaradılan qan bağlılığının) köməyilə müstəqil Azərbaycan cümhuriyyətini devirmək üçün hərəkətə keçdilər. Həmin dövrdə 40 min çevik orduya malik olan Azərbaycanın diqqətini yayındırmaq və onun müqavimətinin azaldılması üçün bolşeviklər erməni daşnaklarının yardımı ilə 1920-ci ilin martında Qarabağda

**(Ardı 6-cı səhifədə).**